**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**GÜNAL ƏLYAR QIZI SƏFƏRLİ**

# HƏMİD ARASLI VƏ KLASSİK ƏDƏBİ İRS

**5716.01**– Azərbaycan ədəbiyyatı

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəsəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2013**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun «Türkdilli əlyazmaların tədqiqi» şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Möhsün Zellabdin oğlu Nağısoylu**
filologiya üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Rafael Baba oğlu Hüseynov**
AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru, professor

**Xəlil Həmid oğlu Yusifli**
filologiya üzrə elmlər doktoru, professor

**Aparıcı müəssisə:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin«Azərbaycan ədəbiyyatı tarixi» kafedrası

Müdafiə «__28___» 06___ 2013-cü il saat __-da Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun nəzdindəki D.01.131 –Dissertasiya Şurasının iclasında keçirilcəkdir.

**Ünvan:** Az-1143, Bakı, H.Cavid prospekti, 31, V mərtəbə, otaq 522, AMEA Nizami adına Ədəbiyyat İnstitutu.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

**Avtoreferat** «_____» __________ 2013-cü ildə göndərilmişdir.

Dissertasiya
Şurasının elmi katibi,
filologiya üzrə elmlər doktoru: **İmamverdi Yavər oğlu Həmidov**

## TƏDQİQAT İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan elmi, mədəniyyəti, ədəbiyyatı tarixində elə şəxsiyyətlər vardır ki, onlar özlərindən sonra gələn nəsillərin mənəvi tərbiyəsində və bir insan kimi formalaşmasında böyük rol oynayır, əsrlər keçdikcə onların qoyub getdikləri irs xalqın mənəvi sərvətinə çevrilir. Belə şəxsiyyətlərdən biri də görkəmli ədəbiyyatşünas, akademik Həmid Araslıdır.

Həmid Araslının yaradıcılığı zəngin və çoxcəhətlidir.Həmid Araslı XX əsr Azərbaycan ədəbiyyatşünaslığının təməlini qoyan şəxsiyyətlərdən biridir. Onun Azərbaycan filologiyası tarixində silinməz izlər buraxan, bu gün də öz müasirliyini və aktuallığını itirməyən elmi əsərləri – məqalələri, çıxışları, portret-oçerkləri, monoqrafiyaları ədəbiyyatşünaslığımızın qızıl fonduna daxildir. Bu irsdən həmişə faydalanmaq, onu müasirlik meyarı ilə qiymətləndirmək və gələcək nəsillərə çatdırmaq çağdaş tənqid və ədəbiyyatşünaslığımızın, ümumən, filoloji fikrimizin başlıca vəzifələrindəndir.

Həmid Araslının elmi-pedaqoji irsi Azərbaycan klassik ədəbiyyatının ən qədim dövründən tutmuş yaşadığı dövrü –XX əsri əhatə edir. Lakin o, ilk növbədə, qədim və orta əsrlər Azərbaycan ədəbiyyatının əvəzolunmaz tədqiqatçısıdır, bu sahədə məktəb yaradan bir alimdir. Onun səmərəli elmi fəaliyyəti həm monoqrafiyalarında, həm də orta və ali məktəblər üçün hazırladığı dərsliklərdə öz əksini tapmışdır. «Həmid Araslı elmi məktəbi» onun öz sağlığında formalaşmış, ölümündəın sonra da davam etmişdir. Yetişdirdiyi alimlərin, elmi rəhbəri olduğu mütəxəssislərin əksəriyyəti indi Azərbaycan ədəbiyyatşünaslıq elminin liderlərinə çevrilmişlər. H.Araslının elmi irsi təkcə milli ərazi ilə məhdudlaşmamış, Yaxın Şərq ölkələrinin bir çoxunda yüksək qiymətləndirilmişdir. Belə görkəmli elm xadiminin irsini tədqiq etmək, onun filoloji fikir tariximizdə yerini və mövqeyini obyektiv şəkildə işıqlandırmaq, təkcə onun xatirəsini yad etmək deyil, həm də XX əsr ədəbiyyatşünaslığımızın keçdiyi çətin və mürəkkəb bir dövrü – 1930-1980-ci illər dövrü barədə müəyyən təsəvvür yaratmaq deməkdir. Çünki haqqında danışılan dövr klassiklərə, klassik poeziyaya münasibətin müxtəlifliyi və mürəkkəbliyi ilə seçilmişdir. Həmin dövr haqqında ən mükəmməl təsəvvürü isə akademik Həmid Araslının əlli ildən arıq davam edən elmi fəaliyyəti fonunda araşdırmaq səmərəli üsuldur. Mövzunun aktuallığı da buradan doğur. «Həmid Araslı və klassik ədəbi irs» adlı bu tədqiqat işi müasir ədəbiyyat elmimizin indiki səviyyəyə çatmasında mühüm xidmətləri olan bir şəxsiyyətin lazımi

dərəcədə dərk olunması ilə bağlıdır.

**Mövzunun tədqiq tarixi.** Həmid Araslının elmi-pedaqoji fəaliyyəti hələ onun öz sağlığında araşdırılmağa başlanmış, istər Azərbaycanda, istərsə də xarici ölkələrdə elmi əsərləri haqqında müsbət fikirlər söylənilmişdir. Bu proses H.Araslının vəfatından sonra da davam etmiş və o, görkəmli bir alim kimi öz həqiqi qiymətini almışdır. H.Araslının həyatı, şəxsiyyəti və yaradıcılığı ilə bağlı məqalə, resenziya və çıxışları bir neçə bölgüdə qruplaşdırmaq olar. Birinci bölgüyə H.Araslının həyatı və şəxsiyyəti ilə bağlı yazılar daxildir ki, bunların da əksəriyyəti onun anadan olmasının 60, 70, 80 və 90 illiyi ilə əlaqədar qələmə alınmışdır. Bu sırada həmçinin H.Araslıya həsr olunan portret-oçerklər xüsusi yer tutur. Tanınmış Azərbaycan alimlərindən Əziz Mirəhmədov, Abbas Zamanov, Kamal Talıbzadə, Mirzağa Quluzadə, Kamran Məmmədov, Azadə Rüstəmova, Xəlil Yusifli, Əlyar Səfərli, Nizami Cəfərov, Araz Dadaşzadə, Vera Devitt, Gövhər Baxşəliyeva, Vaqif Vəliyev, Teymur Əhmədovun akademikə həsr etdiyi məqalələri Həmid Araslının keçdiyi ömür yolunu, parlaq şəxsiyyətini və zəngin elmi yaradıcılığını əks etdirir[1].

İkinci bölgü akademikin müxtəlif illərdə işıq üzü görmüş, həmçinin onun nəşrə hazırladığı, tərtibçisi və redaktoru olduğu kitablarla bağlıdır.

Üçüncü bölgüyə rus, türk, ərəb, fars, özbək, tacik, türkmən, ingilis və slovak dillərində H.Araslının həyatı, yaradıcılığı və müxtəlif illərdə çap

---

[1] Ə.Mirəhmədov. Müəllifi, onun taleyini xatırlarkən... H.Araslı "Azərbaycan ədəbiyyatı: tarixi və problemləri", Bakı: Gənclik.1998, s.11-18; A.Zamanov. Həmid Araslı. "Ədəbiyyat və incəsənət" qəzeti, 1983, 25 noyabr; K.Talıbzadə. Elmə həsr olunan ömür. "Kommunist" qəzeti, 1979, 25 fevral; M.Quluzadə. Həmid Araslı. "Həmid Araslı. Biblioqrafiya", Bakı: Elm,1970, s.12-21; K.Məmmədov. Görkəmli tədqiqatçı. "Ədəbiyyat" qəzeti, 1969, 18 yanvar; A.Rüstəmova. İnad və məhəbbət. "Ədəbiyat və incəsənət" qəzeti, 1979, 3 mart; Ə.Səfərli. Akademik Həmid Araslı. "Ədəbiyyat" qəzeti, 1999, 15 sentyabr; N.Cəfərov. Həmid Araslı yaxud ədəbiyyatımızın tarixçisi. "Həmid Araslı". Biblioqrafiq kitab, Bakı: Elm, 2009, s.17-29; A.Dadaşzadə. Ədəbiyyat elminin fədaisi. "Ədəbiyyat və incəsənət" qəzeti, 1984, 8 mart; V.Devitt. "Azərbaycan ermitajı"nın yaradıcılarından biri. "Azərbaycan ədəbiyyatı", 1970, №5; G.Baxşəliyeva. Akademik Həmid Araslı Azərbaycanda şərqşünaslıq elminin görkəmli tədqiqatçısı kimi. "Hamıdan ucadır müəllimin yeri" kitabı, Bakı, 2013, s.87-88; V.Vəliyev. Həmid müəllim. "Ədəbiyyat" qəzeti, 1991, 19 aprel; T.Əhmədov. Həmid Araslı. Yazıçıların ensiklopedik məlumat kitabı. Bakı: Nurlan nəşriyyatı, 2004; X.Yusifli. Həmid Araslı—100, Bakı: Elm, 2009.

olunan kitabları barədə yazılan məqalələr daxildir.

Akademik H.Araslının həyatı, şəxsiyyəti və zəngin elmi fəaliyyəti ilə bağlı Azərbaycan və dünyanın müxtəlif ölkələrində nəşr olunmuş monoqrafiya, kitab, məqalə, rəy və yazılar çoxdur.

H.Araslının həyatı, şəxsiyyəti və yaradıcılığı ilə bağlı çoxlu məqalələr yazılmasına, onun xidmətlərinin bir çox xalqların ədəbiyyat tarixi dərsliklərində və ayrı-ayrı monoqrafiyalarda qiymət-ləndirilməsinə baxmayaraq, bu görkəmli alimin elmi fəaliyyəti, onun Azərbaycan filoloji fikrindəki rolu və mövqeyi, nizamişünaslıqda və füzulişünaslıqda, ümumən Azərbaycan klassik poeziyasının tədqiqində misilsiz xidmətləri, bu sahədə bir elmi məktəb yaratması haqqında indiyə kimi elmi tədqiqat işi və monoqrafiya, yaxud namizədlik dissertasiyası yazılmamışdır. «Həmid Araslı və klassik ədəbi irs» dissertasiyası bu sahədəki mövcud boşluğu doldurmağa və böyük alimin zəngin elmi fəaliyyətinin sistemli şəkildə tədqiqinə xidmət edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** «Həmid Araslı və klassik ədəbi irs» mövzusunda qələmə alınan bu tədqiqat işinin məqsəd və vəzifələri aşağıdakılardan ibarətdir:

—Dünya şöhrətli alim, akademik Həmid Araslının keçdiyi ömür yolu və şəxsiyyəti haqqında geniş təsəvvür yaratmaq, onun elmi bioqrafiyasını təqdim etmək;

—H.Araslıya qədər milli ədəbiyyat tarixçiliyimizin ilkin qaynaqları, kökləri və mənbələri barədə məlumat vermək, XX əsrin əvvəllərində F.Köçərli, S.Mümtaz və Y.V.Çəmənzəminlinin ədəbiyyat tarixi ilə bağlı araşdırmalarını, bu sahədəki ilk təşəbbüslərini obyektiv şəkildə qiymətləndirmək;

—H.Araslını professional bir ədəbiyyat tarixçisi kimi səciyyələndirmək, onun bu sahədə elmi məktəb yaratdığını əsaslandırmaq, bu məktəbin əsas prinsiplərini müəyyənləşdirmək;

—XII-XVI əsrlərdə yaranan ədəbiyyata, həmin dövrün ictimai-siyasi və ədəbi-mədəni mənzərəsinə, Nizamini və Füzulini yetirən ədəbi mühitə H.Araslının həsr etdiyi tədqiqat əsərlərini təhlil etmək, bu sahədə axtarış və tapıntıları barədə məlumat vermək;

—H.Araslının XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı ilə bağlı fundamental tədqiqatının ədəbiyyat tarixçiliyimizdə mühüm yer tutduğunu, bu tədqiqat əsəri ilə bir çox problemlərə aydınlıq gətirdiyini açıb göstərmək;

—Azərbaycan nizamişünaslığının yaranmasında və onun formalaşmasında H.Araslının rolunu, tədqiqat əsərlərinin əhəmiyyətini və

bu əsərlərlə nizamişünaslığa yeni fikir və ideyalar gətirdiyini açıqlamaq;

—M.Füzuliyə həsr etdiyi monoqrafiyasının, məqalə və çıxışlarının, füzulişünaslıqda yeni bir mərhələ yaratdığını, ədəbiyyatşünaslığa yeni bir ab-hava gətirdiyini, görkəmli bir füzulişünas kimi bütün dünyada tanındığını nəzərə çatdırmaq;

—H.Araslını görkəmli bir folklorşünas kimi təqdim etmək, «Kitabi-Dədə Qorqud» və digər dastanlarımızın tədqiq olunmasında onun misilsiz xidmətlərini qiymətləndirmək;

—Azərbaycan aşıq yaradıcılığının sistemli şəkildə araşdırılmasında H.Araslının gördüyü işləri, bu sahədə də bir çox məsələləri ilk dəfə ortaya qoyduğunu açıqlamaq;

—Ədəbi əlaqələr sahəsində alimin elmi fəaliyyətini dəyərləndirmək.

—H.Araslının orta məktəblər üçün «Ədəbiyyat» və ali məktəblər üçün «Ədəbiyyat tarixi» dərsliklərinin hazırlanmasında göstərdiyi misilsiz xidmətləri layiqincə dəyərləndirmək;

**Tədqiqatın elmi yeniliyi.** Öncə qeyd etdik ki, akademik H.Araslının həyatı, şəxsiyyəti və elmi fəaliyyəti haqqında çoxlu sayda, özü də müxtəlif dillərdə məqalələr, yazılar çap olunmuşdur. Lakin «Həmid Araslı və klassik ədəbi irs» adlı bu tədqiqat işi görkəmli alimin yaradıcılığına sistemli baxışdır. Burada elmi yenilik H.Araslının klassik ədəbi irsə münasibətindəki özünəməxsus cəhətləri üzə çıxarıb təqdim etməklə, onun klassik ədəbiyyatın və onun nümayəndələrinin öyrənilməsinə orijinal elmi yanaşma tərzini müəyyənləşdirməklə ortaya çıxır.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** «Həmid Araslı və klassik ədəbi irs» mövzusu Azərbaycan ədəbi tənqidi və ədəbiyyatşünaslığının görkəmli bir nümayəndəsinin yaradıcılığı barədə ilk tədqiqat əsəridir və bu əsər tənqid tariximizin boş qalan bir səhifəsinin yazılması, tamamlanması deməkdir.

Tədqiqat işindən ədəbiyyatşünaslar, ali məktəblərin filologiya fakültələrində oxuyan tələbələr, müəllimlər yararlana bilər, həmçinin tənqid tarixi ilə bağlı mühazirələrdə, elmi-praktik seminarlarda da bu tədqiqat işindən faydalanmaq olar.

**Tədqiqatın obyekti.** Dissertasiya işinin tədqiqat obyektini akademik Həmid Araslının əlli illik elmi fəaliyyətini əhatə edən məqalələri, çıxışları, dərslikləri, monoqrafiyaları təşkil edir. Tədqiqatın spesifikası ilə əlaqədar olaraq klassik ədəbi irslə bağlı digər alimlərin fikirlərinə də istinad olunmuşdur. Həmçinin, H.Araslının elmi fəaliyyəti ilə bağlı söylənilən fikir və mülahizələrə də müraciət edilmişdir.

**Tədqiqatın metodu.** Mövzunun tədqiqi zamanı müqayisəli təhlil

üsulundan istifadə edilmişdir. Ədəbiyyatşünaslığın, ədəbi tənqid tarixinin, onun aparıcı simalarının əldə etdiyi təcrübə mövzuya nəzəri-metodoloji cəhətdən yanaşılmasını tələb edir.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya işi Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Türkdilli əlyazmaların tədqiqi" şöbəsində yerinə yetirilmişdir. Müəllifin mövzu ilə əlaqədar monoqrafiyası və məqalələri AAK-ın tövsiyə etdiyi elmi nəşrlərdə dərc edilmişdir.

**İşin quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın «Giriş» hissəsində mövzunun aktuallığı, tədqiqat tarixi, tədqiqatın predmeti, məqsəd və vəzifələri, metodologiyası, elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti, aprobasiyası haqqında bilgi verilir.

Birinci fəsil **«Həmid Araslı görkəmli ədəbiyyat tarixçisi kimi»** adlanır. **«Həyatı və şəxsiyyəti»** adlanan birinci bölmədə Həmid Araslının keçdiyi ömür yolu, bir ziyalı və alim kimi yetişib formalaşmasında mühüm rol oynamış şəxsiyyətlər, elmi və ədəbi mühiti, orta və ali məktəblər üçün hazırladığı dərsliklər, ədəbiyyat tariximizin yaranmasında müstəsna xidmətləri, klassik poeziya, xüsusilə Nizami və Füzuli yaradıcılığı ilə bağlı sanballı tədqiqatları, təkcə Azərbaycanda deyil, Yaxın Şərqdə və Orta Asiyada da görkəmli bir alim kimi tanınması haqqında yığcam söz açılır.

H.Araslının həyat yolu heç də sakit və qovğasız keçməmişdir. İstər repressiyanın tüğyan etdiyi 1937-ci ildə, istərsə də əllinci illərin əvvəllərində—ziyalılara qarşı müxtəlif ittihamlar irəli sürüləndə o da təzyiq və təqiblərə, mənəvi sarsıntılara məruz qalmışdı. Xüsusilə, «Kitabi-Dədə Qorqud» dastanlarının nəşri və tədqiqi ilə bağlı gördüyü işlər ona «pantürkist» damğası vurulmasına, bir müddət tutduğu vəzifələrdən uzaqlaşdırılmasına səbəb olmuşdur. Ancaq Stalin-Bağırov rejimi süquta uğrayandan sonra haqq-ədalət yerini tutur. O, yenidən öz yaradıcılıq yolunu davam etdirir, filologiya elmləri doktoru alimlik dərəcəsinə, professor adına layiq görülür. 1958-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, on ildən sonra isə həqiqi üzvü seçilir.

H.Araslı iki dahi Azərbaycan şairinin—Nizami və Füzulinin həyat və yaradıcılığı haqqında monoqrafiyaların müəllifidir. Hələ 1939-cu ildə alimin M.Füzuliyə, bir il sonra isə N.Gəncəviyə həsr etdiyi

monoqrafiyaları çap olunmuşdur. İstər Nizaminin anadan olmasının 800, istərsə də Füzulinin vəfatının 400 illiyi ilə əlaqədar keçirilən tədbirlərdə H.Araslı təkcə təşkilatçılıq fəaliyyəti göstərməklə kifayətlənməmiş, bir nizamişünas və füzulişünas alim kimi dəyərli əsərlər yazıb çap etdirmişdir. Bu baxımdan onun 1958-ci ildə – Füzulinin yubileyi ilində gördüyü işlər xüsusilə əhəmiyyətlidir.

Həmid Araslı elmdə ŞƏXSİYYƏT idi. Onun barəsində söylənilən fikirlər təkcə obyektivliyi ilə deyil, həm də alimə böyük hörmətin ifadəsi olan sevgi ilə doludur. Həmid Araslı şəxsiyyəti haqqında söz açarkən üç əsas amili nəzərə çarpdırmaq lazımdır:

Birincisi, onun elmdə müstəsna xidmətləridir. Daha dəqiq desək, Azərbaycan filoloji fikir tarixində açdığı yoldur. İkincisi, alimin bir insan kimi böyüklüyüdür. Elmdə böyük hünər göstərən bir şəxs insan kimi də zəngin olmalıdır və Həmid Araslı belə zəngin şəxsiyyətlərdən olmuşdur. Üçüncüsü, hər bir böyük alimi yaşadan onun yetirmələridir. Bu baxımdan da Həmid Araslının bəxti gətirib. Çünki onun yetirmələri görkəmli alimlər, istedadlı ədəbiyyatşünaslardır və müəllimlərinin yolunu şərəflə davam etdirirlər.

H.Araslı elmi məktəb yaradan ədəbiyyatşünaslardan olmuşdur. Əgər M.Arif, M.Cəfər kimi görkəmli alimlər XX əsrdə ədəbi tənqid sahəsində bir məktəb yaratmışlarsa, H.Araslı bu işi ədəbiyyatşünaslıq sahəsində görmüşdür. Belə ki, o, qədim və orta əsrlər Azərbaycan ədəbiyyatının öyrənilməsinin yeni metod və üsullarını müəyyənləşdirmiş və yetirmələri də bu prinsipləri yaradıcı şəkildə davam etdirmişlər.

**«Milli ədəbiyyat tarixi ənənələri»** adlanan ikinci bölmədə mükəmməl ədəbiyyat tariximizin yaradılmasına qədər mövcud olan təzkirələrdən, cünglərdən, orta əsr poetika kitablarından, tənqidi risalələrdən bəhs edilir.

Azərbaycan ədəbiyyatının tarixini yazmaq sahəsində ilk təşəbbüs isə Firidun bəy Köçərliyə məxsusdur. O, Azərbaycan ədəbiy-yatşünaslığında Mirzə Fətəli Axundzadədən sonra ən böyük simadır. F. Köçərlinin bu sahədə ilk təşəbbüsü rus dilində qələmə aldığı «Azərbaycan tatarlarının ədəbiyyatı» kitabı oldu. Bu kitabda o, əsasən, XVIII-XIX əsr Azərbaycan ədəbiyyatını, bu ədəbiyyatın inkişaf yolunu tədqiq edir, diqqətini daha çox Vaqif, Zakir, M.F.Axundov, S.Ə.Şirvani yaradıcılığına yönəldərək, Axundov və Qasım bəy Zakiri «yeni ədəbi cərəyanın müməssili» hesab edir, kitabında onların yaradıcılığına geniş yer verirdi.

Sonrakı illərdə F.Köçərli Azərbaycan ədəbiyyatı tarixi ilə daha ciddi şəkildə məşğul olur, əsəri yazıb qurtarsa da, maddi vəsaiti olmadığından onu sağlığında çap etdirə bilmir. Əsər yalnız müəllifin ölümündən sonra,

1925-1926-cı illərdə Azərnəşr tərəfindən çap edilir. Qeyd edək ki, əsər müxtəlif adlar daşısa da, nəşriyyat onu «Azərbaycan ədəbiyyatı materialları» kimi təqdim etmişdir. «Azərbaycan ədəbiyyatı materialları» Köçərliyə qədər çap olunan təzkirə və müntəxəbatların heç birinə oxşamırdı. Çünki bu əsərin tərtibində müəllif elmi prinsipə əsaslanmışdı. O, ədəbiyyat tarixini regional-xronoloji prinsip üzrə müəyyənləşdirərək, Məhəmməd Füzulidən başlayır. Bununla yanaşı, o, XII-XV əsrlərdə yaşayan şairlər haqqında da məlumat verir, hətta özbək şairi Əlişir Nəvaidən və türk şairi Nabidən söhbət açmağı unutmur.

«Azərbaycan tatarlarının ədəbiyyatı» kitabında olduğu kimi, «Azərbaycan ədəbiyyatı materialları»nda da yenə ən böyük oçerklər M. F. Axundova, Q. Zakirə və M. P. Vaqifə həsr olunmuşdur. Bu da təbiidir. F.Köçərli onların simasında yeni ədəbi cərəyanın (həyat həqiqətlərini ifadə edən realizmin) nümayəndələrini görürdü.

F.Köçərlinin «Azərbaycan ədəbiyyatı materialları» kitabı ilə Azərbaycan ədəbiyyatşünaslığında yeni bir mərhələ başlanır və bu mərhələni təzkirəçilikdən ədəbiyyat tarixçiliyinə keçid mərhələsi kimi səciyyələndirmək olar. Təbii ki, bu əsər sonrakı, daha kamil ədəbiyyat tarixləri ilə müqayisədə qüsurlardan da xali deyildi. Belə ki, təzkirə elementləri bu əsərdə də müəyyən dərəcədə hiss olunurdu. Azərbaycan ədəbiyyatı, əsasən, ayrı-ayrı regionlar və bölgələr üzrə, coğrafi bölgü prinsipi ilə öyrənilirdi, ədəbiyyat tarixinin ayrı-ayrı mərhələlərinin və dövrlərinin ayrı-ayrılıqda ümumi mənzərəsi təqdim olunmamışdı. F.Köçərlinin qoyduğu ənənə görkəmli ədəbiyyatşünas və folklorçu kimi tanınan S. Mümtaz və yazıçı-alim Y. V. Çəmən-zəminli tərəfindən davam etdirildi. Ancaq elmi həqiqət naminə deməliyik ki, F.Köçərli, sözün həqiqi mənasında ilk ədəbiyyat tarixini yaratmışsa, S.Mümtaz və Y.Vəzir bu işi sistemli şəkildə həyata keçirməmişlər. Lakin bunlar ədəbiyyat tarixinin ayrı-ayrı qaranlıq səhifələrinin işıqlandırılmasında böyük rol oynamışdır.

Y. V. Çəmənzəminlinin «Azərbaycan ədəbiyyatina bir nəzər» kitabı ədəbiyyat tariximizlə bağlı bir çox məsələlərin aydınlaşmasına kömək etdi. Birincisi, kitabda tarixi-xronoloji prinsipə əməl olunmuşdur. F.Köçərlinin kitabında ədəbi dövrlər və mərhələlər arasında müəyyən boşluqlar nəzərə çarpsa da, Y.V. Çəmənzəminli bu məsələyə xüsusi diqqət yetirmişdir. İkincisi, əgər F.Köçərli haqqında söz açdığı sənətkarların tərcümeyi-hallarını ətraflı və təfərrüatı ilə nəql edirsə, Y.Vəzir buna o qədər də əhəmiyyət vermir, diqqətini həmin şairlərin yaradıcılığının təhlilinə yönəldir. Üçüncüsü, Y.Vəzir F.Köçərli ilə müqayisədə Azərbaycan ədəbiyyatı ilə bağlı müxtəlif məxəzlərə müraciət

etmiş, fikrini əsaslandırmaq üçün rus və türk alimlərinin əsərlərinə də istinad etmişdir.

F.Köçərli, S.Mümtaz və Y.Vəzirin Azərbaycan ədəbiyyatı tarixi ilə bağlı əsərlərini milli ədəbiyyat tarixçiliyinin ilk mərhələsi kimi səciyyələndirmək olar. Bu mərhələdə həmin ədəbi-tarixi missiyanın bünövrəsi qoyulur, yeni tipli ədəbiyyatşünaslığın yaranması ilk növbədə, ədəbiyyat tarixinin yaradılmasını şərtləndirir.

Birinci fəslin üçüncü bölməsi **«H.Araslı XII-XVI əsrlər Azərbaycan ədəbiyyatının tədqiqatçısı kimi»** adlanır. Burada Nizami və Füzuli istisna olunmaqla (onların yaradıcılığı ilə bağlı tədqiqatlar ayrıca bir fəsildə işıqlandırılmışdır), alimin dörd əsr ərzində Azərbaycan ədəbiyyatının keçdiyi inkişaf yolu, ayrı-ayrı sənətkarların yaradıcılığı ilə bağlı tədqiqatlarından söz açılır.

XII əsri «Azərbaycan mədəniyyətinin, Azərbaycan ədəbiyyatının qızıl dövrü» adlandıran H.Araslı Nizaminin müasirləri olan Xaqani Şirvani, Məhsəti Gəncəvi, Əbül-Üla Gəncəvi, Fələki Şirvani, Qivam Mütərrizi, İzzəddin Şirvani və Mücirəddin Beyləqaninin yaradıcılığından da söz açır, onların hər birinin özünəməxsus bir sənətkar olduğunu nəzərə çatdırır. Bu mənada klassik ədəbiyyatda hər bir sənətkarın öz qiymətini vermək, onun fərdi, təkrarolunmaz yaradıcılıq dünyasını elmi-nəzəri rakursda dəyərləndirmək məsələsində H.Araslı öz müasirləri və yetirmələri üçün bir örnək idi.

H.Araslının tədqiqatlarında Füzuliyə qədər olan dövr də öz əksini tapmışdır. O,1943-cü ildə nəşr edilən ikicildlik «Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi»nin I cildi üçün «XIII-XIV əsrlərdə Azərbaycan ədəbiyyatı (Mədəniyyət; Təhsil və ədəbi dil; Saray ədəbiyyatı; Təriqət ədəbiyyatı; Hürufilik və hürufi şairlər)» oçerklərini yazmışdır. Deyə bilərik ki, Azərbaycan ədəbiyyatşünaslığında ədəbiyyat tariximizin göstərilən dövrləri haqqında ilk dəfə geniş elmi təsəvvür yaradan məhz H.Araslı olmuşdur.

Bu baxımdan alimin Füzuliyə qədərki mərhələdə Nəsimi və Xətayi haqqında yazdığı əsərlər xüsusi önəm kəsb edir.

İ.Nəsiminin yaradıcılığı haqqında yazılan əsərlərin sayı o qədər də az deyil, ancaq H. Araslının şairin həyat və yaradıcılığına həsr etdiyi əsər xüsusilə seçilir. H.Araslı Nəsimini şərh edərkən, şairin yaradıcılığının başlıca ideya istiqamətini, əsas pafosunu müəyyənləşdirərkən onun insana, insan qüdrətinə olan böyük inam və məhəbbətini ön plana çəkir, humanizmi Nəsimi poeziyasının başlıca leytmotivi hesab edir.

«Şah İsmayıl Xətai» məqaləsi həcm etibarilə Nəsimiyə həsr olunan

məqalədən kiçik olsa da, öz elmi sanbalı ilə seçilir. Şah İsmayıl Xətai bu yazıda həm qüdrətli bir dövlət xadimi və sərkərdə, qızılbaş ideyalarının ən qızğın təbliğatçısı, həm də öz doğma ana dilində gözəl şeirlər yazan bənzərsiz bir şair kimi təqdim olunur.

**«Həmid Araslının XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı ilə bağlı araşdırmaları»** - I fəslin son bölməsidir. Görkəmli alimin ədəbiyyat tarixi sahəsində ən dəyərli, ən ciddi araşdırmalarının bir qismi Azərbaycan ədəbiyyatının XVII-XVIII əsrlər dövrünə aiddir. 1956-cı ildə çap etdirdiyi «XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi» dərsliyi keçən əsrin 50-60-cı illərində ədəbiyyatşünaslığımızın ən mühüm nailiyyətlərindən biri hesab edilmişdir.

Bu əsər həm dərslik, həm də monoqrafiya – tədqiqat kimi xüsusi önəm daşıyır. O illərdə ədəbiyyat tarixinin həmin dövrünün professional tədqiqatçıları barmaqla sayılacaq qədər idi. H. Araslı bu çətin və məsuliyyətli işi öz boynuna götürdü. İkinci bir tərəfdən, bu əsər ədəbiyyat tarixçiliyinin yeni bir səhifəsinin yazılması demək idi. Qeyd edək ki, bu əsəri çap etdirməzdən öncə H.Araslı XVII-XVIII əsrlər Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən bir çoxu haqqında məqalələr yazmış, onların əsərlərini nəşr etdirmişdi. O, bir qayda olaraq, orta məktəblər üçün yazdığı «Qədim ədəbiyyat» dərsliklərində Qövsi, Vidadi, Vaqif, Məsihi, Nişat Şirvani, Saib Təbrizi, Sarı Aşıq, Məhəmməd Əmani haqqında da söz açırdı.

«XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi» əsərinin elmi dəyərini, ədəbiyyatşünaslığımız üçün çox vacib və əhəmiyyətli bir hadisə olduğunu aşağıdakı şəkildə ümumiləşdirə bilərik.

1. **Mənbələr, qaynaqlar.** Monoqrafiyada XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı ilk dəfə üzə çıxarılmış yeni mənbələrin, ədəbi qaynaqların köməyi ilə araşdırılır.

2. **Klassik ədəbi ənənələrlə bağlılıq.** Bu tədqiqatda Həmid Araslının ən mühüm məqsədi də XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatının ədəbiyyat tariximizdə yeni bir mərhələ təşkil etməsini və bu mərhələnin klassik ənənələrlə sıx bağlı olduğunu nəzərə çarpdırmaq və özündən sonrakı dövrün ədəbiyyatına da təsir göstərməsini sübut etməkdir.

3. **Yanlışlıqlara münasibət.** H. Araslı bu tədqiqatında XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı ilə bağlı yaşlı müasirlərinin bir sıra yanlışlıqlarına da münasibətini bildirmiş, beləliklə də, gələcək tədqiqatçılar üçün yolu asanlaşdırmışdır. Məsələn, Qərbi Avropa şərqşünasları çox zaman Saib, Qövsi, Əmani, Məsihi və b. şairləri Azərbaycan xalqından təcrid edib, fars adlandırmışlar. Bunun səbəbini H.

Araslı belə izah edir: «Avropa şərqşünasları Şərq şairləri haqqında təzkirələrin verdiyi məlumatı nizama salmaqdan irəli gedə bilmirlər. Onlar şairlərin əsərlərinə elmi təhlil verməkdən çox uzaq olub, həmişə təzkirələrin təsiri altında qalır, bir də mürtəce İran ədəbiyyatşünaslarının dediklərini təkrar edirlər»[1].

**4. Dövrün ictimai-siyasi mənzərəsi.** Ədəbiyyat tarixinin hər bir dövrünü (istər kiçik zaman müddətini əhatə etsin, istərsə də geniş bir dövrü—əsrləri) tədqiq edərkən, ilk növbədə, həmin dövrün tarixi, siyasi-ictimai, iqtisadi mənzərəsini canlandırmaq tələb olunur. Bunsuz həmin dövrün ədəbi-mədəni mənzərəsi barədə aydın bir təsəvvür yaratmaq çox çətindir. H.Araslının bir ədəbiyyat tarixçisi kimi başlıca uğurlarından biri də zamanla ədəbiyyatın qarşılıqlı münasibətlərini nəzərə çatdırmaqdır.

**5. Ədəbi dilimizin inkişafında yeni mərhələ.** XVII-XVIII əsrlər ədəbiyyatının ən mühüm özəlliklərindən biri də Azərbaycan ədəbi dilinin dominantlığını saxlaması, şifahi xalq şeiri və danışıq dili hesabına gündən-günə zənginləşməsi idi. Azərbaycan dilinə meyil və marağı H.Araslı Şah İsmayıldan sonrakı, əsasən fars dilini rəsmi dövlət dili kimi qəbul edən Səfəvilərin sarayında da müşahidə edir. Beləliklə, Azərbaycan dili artıq fars danışıq dilinə və fars ədəbi dilinə təsir məkanı əldə edirdi. Nəhayət, bütün bunların nəticəsi olaraq, XVII-XVIII əsrlərdə Azərbaycan ədəbi dili yeni bir inkişaf mərhələsinə daxil olur və ədəbi dildə xəlqilik çalarları xeyli güclənir.

**6. Ədəbi şəxsiyyətlər.** «XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi» monoqrafiyası ayrı-ayrı ədəbi şəxsiyyətlərin portret-oçerkləri ilə də maraqlı və orijinal təsir bağışlayır. H. Araslının bu sahədə müəyyən təcrübəyə malik olması məlumdur.«XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı» dərsliyində Fədai, Məhəmməd Əmani, Tufarqanlı Abbas, Sarı Aşıq, Məsihi, Tərzi Əfşar, Saib Təbrizi, Qövsi Təbrizi, Nişat Şirvani, Şakir Şirvani, Məhcur Şirvani, Ağa Məsih Şirvani, Molla Vəli Vidadi, Molla Pənah Vaqif haqqında portret-oçerklər təqdim edilir. Bu oçerklər müəyyən kompozisiyaya malikdir: 1. Sənətkarın həyatı, ömür yolu, yaşadığı dövrün ictimai-siyasi və ədəbi-mədəni mənzərəsinin qısa xülasəsi; 2. Əsərlərinin nəşri, tədqiq tarixi haqqında məlumat; 3. Sənətkarın yaradıcılığı; 4. Sənətkarın ədəbiyyat tarixində tutduğu yer və yaradıcılığının təsir dairəsi.

H.Araslı Zülali, Nişat Şirvani, Şakir Şirvani və Məhcur Şirvaninin

---

[1] Щ. Арaслы. ХВЫЫ-ХВЫЫЫ яср Азярбайъан ядябиййаты тарихи. Али мяктябляр цчцн дярслик. Бакы, АДУ-нун няшриййаты, 1956, сящ. 143

yaradıcılığına da monoqrfiyada xüsusi yer ayırıb. Belə ki, bu şairlər XVIII əsrin birinci yarısında ədəbiyyatda yeni meyillərin ifadəçiləri kimi təqdim edilirlər. Vaqifin yaradıcılığından söz açan H.Araslı ənənəvi olaraq onun şeirlərində məhəbbət mövzusunun mühüm yer tutduğunu söyləyir. Ancaq onun şeirləri ilə Füzuli və Füzuli ədəbi məktəbini davam etdirən şairlərin şeirləri arasında fərqi də müəyyənləşdirir. «XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı» dərsliyində digər ədəbi şəxsiyyətlərin həyatı və yaradıcılığı haqqında da zəngin məlumatlarla qarşılaşırıq. «Bəxtiyarnamə» poemasının müəllifi Fədai, dövrünün görkəmli lirik şairlərindən olan Məhəmməd Əmani, Vaqif və Vidadi ədəbi məktəbini davam etdirən Hamidi, Məlali, tarixi mənzumələri ilə şöhrətlənən Nəbi, Şikəstə Şirin, Füzuli ədəbi məktəbini davam etdirənlərdən Ağa Məsih Şirvani, Arif Təbrizi, Arif Şirvani də H.Araslının dərsliyində öz əksini tapmışdır.

Dissertasiyanın ikinci fəsli **«Həmid Araslı: Nizami və Füzuli» adlanır.** Adından da göründüyü kimi, bu fəsildə H.Araslının iki dahi şairin—Nizami Gəncəvinin və Məhəmməd Füzulinin həyat və yaradıcılığına həsr etdiyi tədqiqatları öz elmi şərhini tapır. Fəsil aşağıdakı bölmələrdən ibarətdir: **«Həmid Araslı—görkəmli nizamişünas alim», «Füzuli irsinin öyrənilməsi mərhələləri», «H.Araslının «Böyük Azərbaycan şairi Məhəmməd Füzuli» monoqrafiyası.**

H. Araslı görkəmli nizamişünas kimi təkcə Azərbaycanda deyil, Şərq və dünya ədəbiyyatşünaslığında da öz izini qoymuşdur. O, hələ 1940-cı ildə Nizaminin anadan olmasının 800 illiyi ərəfəsində «Şairin həyatı» adlı elmi-publisistik bir kitab nəşr etdirmişdi. Həmin kitab 1967-ci ildə yenidən, daha mükəmməl şəkildə çap olunur. Bundan başqa H.Araslı «Nizami və Vətən» kitabını çap etdirdi. 1947-ci ildə H.Araslının «Böyük Azərbaycan şairi Nizami Gəncəvinin həyat və yaradıcılığı» adlı kitabı da çap olunur ki, bu da mühazirəçilər üçün vəsait kimi hazırlanmışdı. Alimin müxtəlif elmi konfranslarda və beynəlxalq simpoziumlarda çıxışlarını da bu sıraya daxil etsək, belə bir həqiqəti sübut etmiş olarıq ki, doğrudan da, H.Araslı nizamişünaslığın bir elm kimi formalaşmasında böyük rol oynamışdır.

H.Araslı Nizami Gəncəvinin həyat və yaradıcılıq yolunun bütün dönəmlərini izləyən, onun bütün əsərlərini tədqiqat hədəfinə çevirən və eyni zamanda, dahi şairin poeziyası ilə bağlı ən vacib problemləri araşdıran, Nizamini təkcə milli ədəbi kontekstdə deyil, Şərq və dünya ədəbi fikri müstəvisində təqdim edən ilk alimlərdən biridir. Bu mənada onu Y.E.Bertelslə müqayisə etmək olar.

H.Araslı Nizami yaradıcılığı ilə bağlı bir sıra mövzulara ilk dəfə

müraciət etdiyinə görə digər nizamişünaslar üçün bir növ, yol göstərən olmuşdur. Məsələn, nizamişünaslıqda dahi şairin xalq ədəbiyyatı ilə bağlılığı məsələsi, yaxud Nizami və Vətən problemi ilk dəfə H. Araslı tərəfindən araşdırılmışdır. H.Araslı yazırdı: «Nizami, əsərlərini fars dilində yazmasına baxmayaraq, həmişə bir azərbaycanlı kimi düşünmüş, öz obrazlı ifadələrini həmişə xalqdan, canlı xalq dilindən almışdır. Təsadüfi deyildir ki, farslar Nizami və Xaqani şeirlərindən danışanda «buyi-türk miayəd» deyirlər. Xalq ifadələri Nizami yaradıcılığının əsas ruhunu, qanını təşkil etmişdir»[1].

H.Araslı Nizaminin şeirlərində bir çox Azərbaycan kəlmələrini işlətdiyini, bu kəlmələrin «Dədə Qorqud» dastanlarında, xalq ifadə və zərbül-məsəllərində də eynən, yaxud bir qədər dəyişilmiş şəkildə qaldığını çoxlu misallarla nəzərə çarpdırır. O, Nizaminin xalq deyimləri və zərbül-məsəllərindən necə istifadə etdiyinə, xalq aforizmlərini bədii ədəbiyyatda necə canlandırdığına aid də maraqlı nümunələr gətirir.

H. Araslı «Nizami və Azərbaycan xalq ədəbiyyatı» məqaləsində dahi şairin öz əsas mövzularını folklordan almasını, poemalarında xalq dastanları və nağıllarında olduğu kimi, təsvir etdiyi qəhrəmanların nəzir-niyaz vasitəsilə doğulmasını, ata-anasının tək övladı olmasını, ədalətli şah və müsbət qadın obrazlarının, əsasən, xalqın içindən çıxmasını, qəhrəmanın başına gələcək hadisələrin qabaqcadan ona yuxu vasitəsilə əyan olmasını tutarlı misallarla sübuta yetirir və bu nümunələrlə tanış olduqdan sonra oxucuda heç bir şəkk-şübhə yaranmır ki, Nizami, məhz Azərbaycan şairidir.

H.Araslı Nizaminin Azərbaycan və Yaxın Şərq ədəbiyyatına təsirini, ədəbi məktəb yaratdığını müxtəlif məqalələrində dönə-dönə açıqlamışdır. İlk növbədə, o, bu ədəbi məktəbin prinsiplərini açıqlayır: şairə dünya şöhrəti qazandıran və onun yaradıcılığını ədəbi məktəbə çevirən amilləri şərh edir.

Nizami bənzərsiz söz ustası idi. Onun hər beyti dərin məna yükünə malik idi. Sonralar şairin davamçıları olan Nəvai, Əmir Xosrov Dəhləvi, Füzuli kimi sənətkarlar onu «sözün hakimi» kimi qiymətləndirmiş, qarşısında baş əymişlər.

Nizami Şərq ədəbiyyatında ictimai-siyasi tənqidin ilk təsirli nümunələrini yaratmış, ədalətsizlik, zorakılıq və mənəvi qüsurları tənqid hədəfinə çevirmişdir. H.Araslı Nizaminin yaratdığı ədəbi məktəbin bir

---

[1] Щ.Араслы. Азярбайъан ядябиййаты: тарихи вя проблемляри. Бакы, «Эянълик» няшриййаты, 1998, сящ. 139

neçə əsr davam etməsini, istər Azərbaycan, istərsə də fars-tacik, özbək, hind, əfqan, türkmən, kürd, qazax, qırğız, türk, gürcü ədəbiyyatlarında parlaq ədəbi nümunələrin yaranmasını da böyük qürur hissilə qeyd edir. M. Əvhədi, A. Ərdəbili, Ə. Təbrizi, Füzuli, Məsihi, Nakam (Azərbaycan), Cami, Hatifi, Nami, Hilali, Vüsal Şirazi, Vəşhi Kirmani (fars-tacik), Ə. Nəvai, Qütbü (özbək), Əmir Xosrov Dəhləvi (hind), Əndəlib (türkmən), Xanay Qubadi (kürd), A. Kunanbayev (qazax), Əhmədi, Cəlili, Behişti, H. Həmdi, Lamii, Taşlıcalı Yəhya, Əhməd Rizvan (türk), Ş. Rustaveli (gürcü) Nizami poemalarından təsirlənərək ya «Xəmsə» yaratmış, ya da «Xəmsə» motivlərindən istifadə etmişlər.

Nizaminin Qərbi Avropa ədəbiyyatına təsiri məsələsini də unutmaq olmaz və H.Araslı yeri gəldikcə məqalələrində bu məsələyə də toxunmuşdur. O, dünya ədəbiyyatşünaslığında Nizami yaradıcılığı ilə bağlı qələmə alınan elmi əsərlər haqqında da məlumat verir.

H.Araslı Nizaminin hər bir poemasını şərh edərkən, ilk növbədə, diqqəti o əsərdə irəli sürülən başlıca ideya üzərinə yönəldir. «Sirlər xəzinəsi»nin Şərq bədii fikir tarixində yeni bir səhifə açdığını, gələcək poemalarında gördüyümüz dərin humanist fikirlərin bu əsərdən qaynaqlandığını göstərən H.Araslı müxtəlif problemlərə toxunur.

H.Araslı «Sirlər xəzinəsi»nin Sənainin «Hədiqətül-həqayiq» əsərindən iqtibas edildiyini yanlış bir fikir hesab edir. Çünki H.Araslının fikrincə, «Hədiqətül-həqayiq» öz mövzusu etibarilə «Sirlər xəzinəsi»ndən tamamilə fərqlənir. Sənainin ədalət haqqında görüşləri Nizami əsəri ilə yaxından səsləşsə də, onun əsəri təriqət qanun-qaydalarına, ayin və xüsusiyyətlərinin şərhinə həsr edilmişdir. Əgər Sənai ağılı inkar edib həqiqəti əsasən hisslər vasitəsilə tapmaq mümkün olduğunu söyləyirsə, Nizami ağılı üstün tutur.

Eyni fikri biz görkəmli nizamişünas Y.E.Bertelsin «Böyük Azərbaycan şairi Nizami» monoqrafiyasında da izləyə bilərik.H.Araslı Nizaminin «Xosrov və Şirin» poemasına öz tədqiqatlarında daha çox yer vermişdir. Bunun səbəbini belə izah edə bilərik ki, bu əsərdə Azərbaycan xalqının tarixi ilə səsləşən məqamlar vardır. H.Araslı düzgün qeyd edir ki, Nizami bu dastanın xalq arasında yayılmış müxtəlif versiyalarını öyrənmiş, Xosrovla Şirinin məhəbbəti, Fərhadın Şirinə aşiq olması, yaratdığı sənət abidələri və s. haqqında yayılmış rəvayətlərdən geniş faydalanmışdır.

H.Araslı «Leyli və Məcnun» poemasının təhlilinə də kifayət qədər yer ayırmışdır. Bu mövzuya girişməzdən öncə poemanın ərəb mənşəyi ilə ciddi maraqlanmış, təkcə Nizami «Leyli və Məcnun»unu təhlil etməklə kifayətlənməmiş, Nizamidən sonra bu mövzuda Azərbaycan və Şərq

şairlərinin yaratdıqları «Leyli və Məcnun»ları da tədqiq etmişdir.

Əvvəlki üç əsərlə müqayisədə «Yeddi gözəl» və «İskəndərnamə» poemaları H.Araslının tədqiqatlarında nisbətən az işıqlandırılıb. Ancaq buna baxmayaraq, həmin əsərlər barədə söylənilən fikirlər də öz elmi sanbalı və obyektivliyi ilə diqqəti cəlb edir. «Yeddi gözəl» əsərində Nizami dövrünün bir çox ictimai haqsızlıqlarını kəskin tənqid etmiş, "Ədalətli şah kimdir?" sualına cavab axtarmış, geniş xalq kütlələrinə bildirmişdir. Bəhram Gurun obrazını yaradarkən Nizami qədim tarixi rəvayətlərlə xalq rəvayətlərini bir araya toplamış, onları mükəmməlləşdirmiş və poemanı qədim nücum elmi əsasında quraraq, maraqlı bir kompozisiya ilə həllinə nail olmuşdur. Nizami digər əsərlərində də folklordan, xalq hikmətindən bol-bol faydalanmışdır, lakin bu əsərdə folklor təsiri daha güclüdür.

Nizami yaradıcılığının ən yüksək zirvəsi «İskəndərnamə»dir. H.Araslı da bu əsəri şairin digər poemalarında qoyduğu ictimai-siyasi və fəlsəfi fikirlərinin yekunu kimi qiymətləndirir, onun qəhrəmanlıq səhnələrinə həsr olunan birinci hissəsini və ictimai-siyasi, fəlsəfi məsələlərdən bəhs edən ikinci hissəsini geniş təhlil edir. Alimin təhlillərindən belə bir nəticə hasil olur ki, əvvəlki dörd poemasından fərqli olaraq, Nizami bu poemada «bütün dünyada vahid xoşbəxt bir dövlət, milli və dini ayrılıqlara fərq qoymadan bəşəriyyətə səadət gətirəcək adil bir hökmdar surəti yaratmaq niyyəti ilə İskəndəri seçmişdir».[1] Nizamini bütün ömrü boyu düşündürən dövlət, cəmiyyət, ədalətli şah, xoşbəxt quruluş və s. məsələlər bu əsərdə ideal dərəcədə öz həllini tapır. O, «əyri dolanmağı, yalan danışmağı, oğurluğu» rədd edən xoşbəxt bir cəmiyyətin modelini yaradır, ilk utopik sosialistlərdən çox-çox əvvəl bəşəriyyətin nicat yolunu göstərir.

Akademik H. Araslının elmi yaradıcılığında dahi Azərbaycan şairi Məhəmməd Füzuli irsinin tədqiqi mühüm yer tutur. H.Araslıya qədər də M.Füzulinin həyatı, şəxsiyyəti və yaradıcılığı haqqında əsərlər yazılmışdı, lakin H.Araslı bu sahədə – füzulişünaslığın inkişafında yeni bir mərhələnin yaradıcılarından oldu.

Azərbaycan füzulişünaslığının tarixi hansı dövrdən başlayır? Bu suala biz füzulişünaslıqda ilk dəfə Həmid Araslının məqalələrində rast gəlirik. H.Araslı Füzuli irsinin öyrənilməsini müəyyən mərhələlərə ayırmasa da, XIX əsrdən başlayaraq, Füzuli yaradıcılığına marağın artdığını, XX əsrdə isə Azərbaycan füzulişünaslığının formalaşdığı qənaətinə gəlir.

---

[1]Щ. Араслы. Азярбайъан ядябиййаты: tарихи вя проблемляри. Бакы, «Эянълик» няшриййаты, 1998, сящ.136

H.Araslının Füzuli irsinin tədqiqi ilə bağlı elmdə ilk araşdırması təqdirəlayiq hadisə idi. H.Araslı həmin məqalədə Füzuli yaradıcılığının Qərbi Avropa, rus və türk ədəbiyyatşünaslarının əsərlərində necə işıqlandırıldığını da unutmamışdır. Təsadüfü deyil ki, bu barədə də ilkin təşəbbüs ona məxsusdur. Lakin H.Araslının Füzuli irsinin öyrənilməsi və tədqiqi ilə bağlı fəaliyyətini təkcə adını çəkdiyimiz bir məqalə ilə məhdudlaşdırmaq olmaz. H.Araslı «İngilis alimi Gibb Füzuli haqqında», «Füzuli haqqında yeni kitab», «Füzuli irsinin öyrənilməsi tarixindən», «Füzuli poeziyasının ümumdünya əhəmiyyəti» adlı məqalələr[1] də qələmə almışdır ki, bunlar Füzuli irsinin öyrənilməsində qiymətli mənbələr sayıla bilər.

Azərbaycan füzulişünaslığında 1940-1980-ci illəri ən məhsuldar bir mərhələ kimi qiymətləndirmək olar. Artıq kütləvi repressiya tufanı bitmişdi, Azərbaycanın görkəmli elm və sənət xadimlərinin bir çoxu həbs edilmiş, güllələnmişdilər. Nə Bəkir Çobanzadə, nə Salman Mümtaz, nə Əmin Abid, nə də Hənəfi Zeynalı vardı. Amma H.Araslıya, o cümlədən, bir sıra gənc alimlərə toxunulmamışdı. Azərbaycan füzulişünaslığında yeni bir mərhələnin əsasını da məhz Həmid Araslı və Mir Cəlal Paşayev qoydular. Həmid Araslının «Füzuli»(1939), Mir Cəlal Paşayevin «Füzulinin poetik xüsusiyyətləri» (1940) kitabları ilə Füzuli irsinə yeni bir baxış formalaşmağa başladı. Yenilik ondan ibarət idi ki, Füzulinin yaradıcılığı bundan əvvəlki mərhələlərə xas olan sistemsizlikdən xilas oldu. Füzulinin çoxcəhətli, zəngin ədəbi irsi klassik Azərbaycan ədəbiyyatı kontekstində öyrənilməyə başlandı, onun həyatı, şəxsiyyəti, ədəbi mühiti və yaradıcılığının təsir dairəsi kimi məsələlər geniş tədqiq predmetinə çevrildi. Füzulinin yaradıcılığındakı bütün meyillər, onun üslubu və metodu, Şərq poetikası ilə bağlılığı, Füzuli və dünya ədəbiyyatı və s. məsələlər ilk dəfə elmi-nəzəri şəkildə öyrənilməyə, tədqiq olunmağa başlandı. Əlbəttə, dediyimiz bütün bu məsələlər adını çəkdiyimiz iki kitabda heç də tam şəkildə əks olunmamışdı, H.Araslının «Füzuli» kitabı müəyyən elmi informasiya xarakteri daşıyırdı, M.Cəlalın əsəri isə özünün namizədlik dissertasiyası əsasında hazırlanmışdı, amma bu iki əsər füzulişünaslıqda bir sistem yarada biləcək tezis-əsərlər idi. Az sonra H.Araslının da müəlliflərindən biri olduğu ikicildlik «Müxtəsər

[1] H.Araslı. Инэилис алими Эибб Фцзули щаггында. "Ədəbiyyat" qəzeti, 1942, 14 oktyabr; H. Araslı. Фцзули щаггында йени китаб. "Ədəbiyyat və incəsənət" qəzeti, 1958, 25 yanvar; H.Araslı. Фцзули ирсинин юйрянилмяси тарихиндян. "Ədəbiyyat və incəsənət" qəzeti, 1958, 01 mart; H. Araslı. Фцзули поезийасынын цмумдцнйа ящямиййяти. Azərbaycan SSRİ EA məruzələri. 1958, № 6.

Azərbaycan ədəbiyyatı tarixi» də işıq üzü gördü. Həmin kitabda «Füzuli» oçerkinin müəllifi də Həmid Araslı idi.

Azərbaycan füzulişünaslığında ilk monoqrafik tədqiqat akademik H. Araslının adı ilə bağlıdır. Onun «Böyük Azərbaycan şairi Füzuli» əsəri dahi şairin həyatı, yaşadığı dövrün ictiami-siyasi və ədəbi-mədəni mühiti, çoxcəhətli yaradıcılığı (lirikası, poemaları, nəsri, müəmmaları, tərcümələri, əsərlərinin dil və üslub xüsusiyyətləri, Şərq və Avropa ədəbiyyatları ilə bağlılığı, həmçinin əsərlərinin tədqiqi tarixi) ilk dəfə sistemli şəkildə elmi ictimaiyyətə təqdim olunur. Bu monoqrafiya ilə H.Araslı Azərbaycan füzulişünaslığında yeni bir səhifə açır, onun ədəbiyyatşünaslığın mühüm bir qolu olduğunu sübut edir, füzulişünaslar üçün «nədən yazmalı?» və «necə yazmalı?» suallarını aydınlaşdırır, bu sahədə elmi meyarları müəyyənləşdirir. Həmin monoqrafiyaya qədər Füzuli yaradıcılığı yalnız ayrı-ayrı mövzular üzrə tədqiq olunmuşdu, lakin dahi şairin ədəbi irsinə ümumi, sistemli bir baxış yox idi. Bu mənada Həmid Araslının «Böyük Azərbaycan şairi Füzuli» monoqrafiyası Füzulinin ömür yolunu və yaradıcılığını bütöv və tam şəkildə açıqlayan ilk monoqrafiya kimi diqqəti cəlb edir.

Monoqrafiyada «Füzulinin həyatı» fəsli də füzulişünaslıqda dahi şairin ömür yolu haqqında ilk elmi tərcümeyi-haldır. H.Araslı Füzulinin həyatı ilə bağlı əldə olan bütün mənbələrə diqqət yetirmiş, həmin mənbələrdəki faktları ümumiləşdirərək, doğru-düzgün bir tərcümeyi-hal ərsəyə gətirmişdir.

Monoqrafiyada Füzuli yaradıcılığının, şairin ayrı-ayrı əsərlərinin təhlili ilə bağlı fikir və mülahizələri aşağıdakı şəkildə ümumiləşdirə bilərik: 1. Füzuli qəzəllərinin təhlili, şairin qəzəl formasına gətirdiyi yeniliklər; 2. Füzulidə eşqin mahiyyəti; 3. Dinə münasibəti; 4. Ədalətli şah problemi; 5. Qəsidələri; 6. «Ənisül-qəlb»in təhlili; 7. Alleqoriyaları; 8. "Leyli və Məcnun"; 9. Nəsri; 10. «Hədiqətüs-süəda». 11. Füzulinin dil və üslub xüsusiyyətləri.

Ümumiyyətlə, «Böyük Azərbaycan şairi Füzuli» monoqrafiyası təkcə Həmid Araslının yaradıcılığında deyil, bütövlükdə XX əsr Azərbaycan ədəbiyyatşünaslığında bir hadisə hesab edilməlidir.

Dissertasiyanın üçüncü –sonuncu fəsli **«Həmid Araslının folklor və ədəbi əlaqələr sahəsindəki elmi araşdırmaları»** adlanır. Fəslin birinci bölməsi H.Araslının «Kitabi-Dədə Qorqud» və digər dastanların araşdırmalarına həsr olunmuşdur. Qeyd olunur ki, akademik Həmid Araslı təkcə görkəmli ədəbiyyat tarixçisi kimi deyil, həm də folklorşünas kimi tanınırdı. Onun bu sahədə tədqiqatlarını aşağıdakı kimi qruplaşdırmaq

olar: 1. "Kitabi-Dədə Qorqud", "Koroğlu" və digər xalq dastanlarının tədqiqi; 2. Aşıq sənəti və ayrı-ayrı ustad aşıqların yaradıcılığı ilə bağlı araşdırmalar; 3. Folklor və klassik irs problemi.

H.Araslı «Dədə Qorqud»la bağlı tədqiqatlarına keçən əsrin otuzuncu illərində başlamışdır. Belə ki, o, 1938-ci ildə F.Qasımzadə və M.Rəfili ilə birlikdə orta məktəbin 8-ci sinfi üçün hazırladığı dərslikdə «Dədə Qorqud» eposu haqqında bir səhifəlik məlumat vermişdir. Daha sonra iki məqalə çap etdirmişdir: «Ktabi-Dədə Qorqud» və «Kitabi-Dədə Qorqud» haqqında. 1939-cu ildə onun tərtibi və redaktəsi ilə «Kitabi-Dədə Qorqud» eposu nəşr olunur, həmin kitabda H.Araslı geniş bir müqəddimə ilə çıxış edir. 1943-cü ildə nəşr olunmuş «Müxtəsər Azərbaycan ədəbiyyatı»nın I cildində «Dədə Qorqud» dastanı» adlı 9 səhifəlik oçerkin müəllifi də H. Araslı idi. 1949-1950-ci illərdə— «Dədə Qorqud»un başı üstündə təhlükənin yaxınlaşdığı ərəfədə orta məktəbin 8-ci sinfi üçün yazılan «Qədim ədəbiyyat» dərsliyində də dastandan danışılırdı. Bu dərslikdə də həmin hissənin müəllifi H. Araslı idi. 1950-ci ildə «Kitabi-Dədə Qorqud»un akademitk V.V. Bartold tərəfindən rus dilinə tərcüməsinin müfəssəl təshihlərlə çap olunmasında da (M.H.Təhmasiblə birgə) H.Araslının böyük əməyi vardı. Bir il sonra (1951-ci ildə) «Kitabi-Dədə Qorqud» eposu yuxarıların hücumuna məruz qalır. Azərbaycan yazıçıları bu münasibətlə ümumi yığıncaq keçirmiş, bir çox yazıçılar «Dədə Qorqud»u səhvən yüksək qiymətləndirdiklərini «etiraf etsələr» də, H.Araslı axıra qədər məsləkinə sadiq qalmışdır. «Dədə Qorqud» «bəraət» qazanandan sonra onun haqqında ilk məqaləni yazan müəlliflərdən biri də H. Araslı olur.

1962-ci ildə isə Həmid Araslının tərtibi və redaktorluğu ilə «Kitabi-Dədə Qorqud» yenidən nəşr olunur. H.Araslı bu nəşrdə də müqəddimə ilə çıxış edir. Kitabın sonunda isə dastandakı ayrı-ayrı qədim Azərbaycan sözlərinin və arxaik ifadələrin mənasını izah edən lüğət təqdim olunur. Həmin kitab təkmilləşmiş halda yenə H.Araslının tərtibi və redaktəsi ilə 1978-ci ildə də nəşr edilir.

Göründüyü kimi, «Kitabi-Dədə Qorqud» eposunun öyrənilməsi, tədqiqi, təbliği və nəşri sahəsində Həmid Araslının gördüyü işlər, bəlkə də, bir institutun gördüyü işə bərabərdir.

H.Araslı «Dədə Qorqud» dastanlarını dünya xalqlarının ən məşhur dastanları ilə müqayisə edilə biləcək yüksək sənət əsəri hesab edir. Onu X-XI əsrlərdə ədəbiyyat tariximizdə ana dilində qələmə alınan ilk böyük abidə hesab edən tədqiqatçı dastanların bizə məlum olmayan bir şəxs tərəfindən yazıya köçürüldüyünü iddia edir. Dastanın ilk nüsxəsinin

meydana çıxmasından, yəni Avropada tanıdılmasından, bu barədə məlumat verilməsindən tutmuş V.V.Bartoldun şərhlərinə, daha sonra Rusiyada və Türkiyədə nəşrinə qədər keçdiyi yolu izləyir.

«Dədə Qorqud» dastanlarının Azərbaycanla bağlı olduğunu vaxtilə müxtəlif məqsədlə Qafqaza gəlmiş alimlər, səyyahlar da dəfələrlə qeyd etmişlər. Adam Oleari hələ 1638-ci ildə Dərbənddə olanda, azərbaycanlılardan Dədə Qorqud hekayətlərini eşitdiyini, Qazan xanın arvadı Burla Xatunun, eləcə də Dədə Qorqudun özünün burada qəbirləri olduğunu qeyd etmişdir. H.Araslı dastanın Azərbaycanla bağlı olduğunu sübut üçün onda ərəb-fars kəlmələrinin azlıq təşkil etdiyini də nəzərə çarpdırır. Bundan başqa dastanda işlədilən yer və məkan adlarının əksəriyyətinin məhz o dövrkü Azərbaycana mənsubluğunu təsdiqləyir.

H.Araslı «Dədə Qorqud» dastanlarının Azərbaycan xalq nağılları və dastanlarına təsiri məsələsini ilk dəfə qorqudşünaslığın mövzusuna çevirir. Onun qısa, yığcam qeydlərindən məlum olur ki, «Aşıq Qərib», «Şah İsmayıl», «Koroğlu» və b. dastanlarda «Dədə Qorqud» dastanından alınmış bir çox hissələr vardır.

H.Araslı «Kitabi-Dədə Qorqud»la yanaşı, digər Azərbaycan dastanları haqqında da məqalələr yazmış, bir sıra dərsliklərində onlardan söz açmış, nəşr olunmasında da əməyini əsirgəməmişdir.

H.Araslı «Koroğlu» dastanını Azərbaycan aşıq yaradıcılığının ölməz abidəsi hesab edir, onu qəhrəmanlıq dastanı kimi təhlil edir. Görkəmli tədqiqatçı «Şah İsmayıl» və «Aşıq Qərib» dastanları haqqında da fikir söyləmişdir. H.Araslı tarixi mənbələrə istinad edərək yazır ki, hələ XVI əsrin ortalarında Şah İsmayıl Xətainin şeirləri əsasında «Şah İsmayıl» dastanı ərsəyə gəlmişdir. «Aşıq Qərib» dastanının məhəbbət mövzusu üzərində qurulduğunu qeyd edən H.Araslı belə bir cəhəti nəzərə çatdırır ki, əgər «Şah İsmayıl» və ondan əvvəl yaranan digər məhəbbət dastanlarında qol qüvvəti, qəhrəmanlıq göstərmək əsas idisə, burada söz qüdrəti, mənəvi qüvvə əsas rol oynayır. «Aşıq Qərib»də var-dövlət, pul ilə mənəvi qüdrət, sənət qarşı-qarşıya qoyulur, sənətin daha üstün olduğu göstərilir.

H.Araslı «Əsli və Kərəm», «Qaçaq Nəbi» dastanları haqqında da ayrıca tədqiqat işi aparmışdır. O, «Əsli və Kərəm» mövzusunun XVII əsrdə mövcud olduğunu aydınlaşdırır, lakin dastanın məlum variantının XVIII əsrdə formalaşdığını göstərir.

Üçüncü fəslin ikinci bölməsi **«Aşıq yaradıcılığı»** adlanır. H.Araslının Azərbaycan folklorunun ən zəngin qollarından biri olan aşıq yaradıcılığı ilə bağlı tədqiqatları da keçən əsrin otuzuncu illərindən başlayır. Belə ki,

o, orta məktəblər üçün yazdığı bütün dərsliklərində bu barədə məlumat vermiş, mümkün olduqca şagirdlərdə aşıq ədəbiyyatının keçib gəldiyi yol, ustad sənətkarların yaradıcılığı haqqında onlarda ilkin təəssürat yaratmağa çalışmışdır. Əgər müxtəlif illərdə yazdığı məqalələrinə diqqət yetirsək, H.Araslının bu mövzu ilə əlaqədar mütəmadi çalışdığını görərik. «Sarı Aşıq haqqında», «Aşıq poeziyası və klassiklər», «Aşıq yaradıcılığı», «Aşıq yaradıcılığı təbliğ edilir», «Aşıq Abbas Tufarqanlı», «Xalq sənətkarı Aşıq Alı» məqalələri, həmçinin 1960-cı ildə nəşr olunan «Aşıq yaradıcılığı» monoqrafiyası, ondan dörd il öncə çap edilmiş «XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi» dərsliyindəki ayrı-ayrı oçerklər H.Araslının folklorun bu zəngin qoluna marağının ömrünün sonuna qədər davam etdiyini təsdiqləyir.

Aşıq yaradıcılığının tədqiqinə həsr etdiyi və indinin özündə də ən sanballı bir dərslik və vəsait kimi istifadə olunan «Aşıq yaradıcılığı» kitabı H.Araslının bu sahədə illər boyu apardığı axtarışların, bir növ, yekunu kimi diqqəti cəlb edir.

Bu kitabı da H.Araslının ədəbiyyat tarixçiliyi sahəsində gördüyü işlərin bir hissəsi hesab etmək olar.

H.Araslının aşıq yaradıcılığı ilə bağlı tədqiqlərini müəyyən mövzular əsasında qruplaşdırsaq, təxminən belə bir bölgü ilə qarşılaşarıq: 1. Aşığın və aşıqlığın mahiyyəti: Aşıq kimdir, aşıqlıq nədir? ; 2. Aşıq poeziyasının mövzuları və formaca zənginliyi; 3. Aşıq şeirinin ayrı-ayrı mərhələləri və ustad aşıqlar; 4. XX əsrin əvvəllərində və sovet dövründə aşıq yaradıcılığı.

Fəslin sonuncu bölməsi **«Ədəbi əlaqələr»** adlanır. Həmid Araslı geniş elmi erudusiyaya malik bir alim idi. O, dünya, xüsusilə klassik Şərq ədəbiyyatının da mahir bilicisi kimi tanınırdı. Azərbaycan ədəbiyyatını tədqiq edərkən o, təkcə milli ədəbi-elmi dəyərlərlə kifayətlənmir, ədəbiyyatımızı dünya və Şərq bədii fikri kontekstində izləyirdi. Nizami və Füzuli haqqında yazdığı monoqrafik tədqiqatlarında bu iki dahi şair dünya poeziyasının korifeyləri kimi təbliğ olunurdu, yəni Nizaminin də, Füzulinin də yaradıcılığı dünya bədii fikrinin nailiyyəti kimi tədqiq edilirdi. «Böyük Azərbaycan şairi Füzuli» monoqrafiyasında H.Araslı «Füzuli və dünya ədəbiyyatı» adlı bir fəsil təqdim edir və burada dahi şairin Azərbaycan, Şərq və Avropa ədəbiyyatına təsiri məsələsindən söz açır. Onun elm aləmində görkəmli bir şərqşünas kimi tanınması klassik bədii irsimizi Şərq ədəbiyyatı kontekstində təhlil etməsi və Şərq bədii fikrinin ölməz nümunələrini tədqiq və təhlil etməsi ilə izah edilməlidir.

Ədəbi əlaqələr xalqların mədəni birliyinin başlıca stimuludur, müxtəlif ərazilərdə və qitələrdə yaşayan xalqlar arasında mənəvi körpü yaradan bir

vasitədir. Bu əlaqələr təkcə xalqlar arasında ədəbi- mədəni tədbirlərin həyata keçirilməsi yolu ilə deyil, həm də ədəbiyyatların yaxınlaşması, bir-birinə təsiri vasitəsi ilə də baş verir. H.Araslının «Gülşəhri və Nizami Gəncəvi», «Nizami və özbək ədəbiyyatı», «Cami və Azərbaycan ədəbiyyatı», «Azərbaycan və Hindistan xalqları arasındakı mədəni əlaqələr tarixindən», «Nəvai və Azərbaycan ədəbiyyatı», «Tofiq Fikrət və Azərbaycan ədəbiyyatı», «Sabir və Şərq ədəbiyyatı», həmçinin «Füzuli ərəb tədqiqatında» məqalələri məhz bu qarşılıqlı təsiri əks etdirir. Adını çəkdiyimiz məqalələr Azərbaycan ədəbiyyatını Şərq kontekstində izləmək, həmçinin Şərq dühalarının Azərbaycan ədəbiyyatına təsiri məsələsini öyrənmək baxımından diqqəti cəlb edən, bu gün də öz aktuallığını saxlayan tədqiqat əsərləridir. Bu əsərlər sırasında Nizamiyə və Nəvaiyə həsr olunan məqalələr xüsusi yer tutur.

Həmid Araslının ədəbi əlaqələr mövzusu ilə bağlı ən səmərəli yazısı «Azərbaycan və Hindistan xalqları arasında mədəni əlaqələrin tarixindən» məqaləsidir. Burada ədəbi əlaqələr sırf yaradıcılıq əlaqələri kontekstində deyil, həm də xalqların mədəni və iqtisadi əlaqələri kimi şərh olunur.

Alimin Misirdə, İranda və Türkiyədə Azərbaycan ədəbiyyatı ilə bağlı çap olunan tədqiqatlara münasibəti, həmin əsərlərin həm uğurlu cəhətlərini, həm də nöqsanlarını göstərən məqalələri bir daha göstərir ki, H.Araslı bir vətənpərvər alim kimi Azərbaycan ədəbiyyatı ilə bağlı qələmə alınan tədqiqat əsərlərinə biganə qalmamış, həmin məqalələrdə nəzərə çarpan kobud səhvlərə, yanlışlıqlara vaxtında etirazını bildirmiş, elmi dəlillərlə, inandırıcı faktlarla öz fikrini əsaslandırmışdır.

**Tədqiqatın nəticələrini aşağıdakı kimi ümumiləşdirmək mümkündür:**

1. Akademik H.Araslı XX əsr Azərbaycan ədəbiyyatı tarixinin görkəmli simalarından biridir. O, əlli iki il Azərbaycan klassik ədəbiyyatının tədqiqi, təbliği və nəşri sahəsində gərgin fəaliyyət göstərmiş, ədəbiyyat tarixinin yaradılmasında, orta və ali məktəblər üçün ədəbiyyat dərsliklərinin və müntəxabatların hazırlanmasında, elmi kadrların yetişdirilməsində misilsiz xidmətlər göstərmişdir.

2. H.Araslı Azərbaycan ədəbiyyatı tarixinin ilk sistemli yaradıcısıdır. F.Köçərli, S.Mümtaz, Y.V.Çəmənzəminli kimi görkəmli şəxsiyyətlər bu sahədə mühüm işlər görmüşlər, lakin onların əməyini, çəkdikləri zəhməti yerə vurmadan söyləyə bilərik ki, qədim və orta əsrlər ədəbiyyat tarixinin elmi prinsiplər əsasında yazılması H.Araslının adı ilə bağlıdır.

Onun müəyyənləşdirdiyi prinsipə görə milli ədəbiyyatımızın tarixi

folklordan, el ədəbiyyatından başlanır. Sonra ədəbiyyat tarixinin inkişaf mərhələləri əsrlər üzrə müəyyənləşdirilir: qədim Azərbaycan ədəbiyyatı (VII-XI əsrlər), XII əsr Azərbaycan ədəbiyyatı, XIII-XIV əsrlər Azərbaycan ədəbiyyatı, XV-XVI əsrlər Azərbaycan ədəbiyyatı, XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı.

3. H.Araslı elmi məktəb yaradan ədəbiyyatşünasdır. Əgər Azərbaycan ədəbi tənqidində M. Arif və M. Cəfər kimi ustad tənqidçilər bu sahədə özlərinin məktəbini yaradıblarsa və onların yolunu davam etdirən tənqidçilər nəsli fəaliyyət göstərirsə, H.Araslı da ədəbiyyatşünaslıq sahəsində məktəb yaratmışdır. Bu məktəbin nümayəndələri klassik ədəbiyyatın tədqiqi, təbliği ilə bağlı fundamental işlər görür, klassik ədəbiyyatı yeni elmi meyarlarla qiymətləndirir, müasirliklə klas-sikanının vəhdətini, qırılmazlığını yaratmağa səy göstərirlər.

4. Həmid Araslı Azərbaycan xalqının XII əsrdə yetirdiyi dahi Nizaminin və XVI əsrin başqa bir dahi şairi Füzulinin Azərbaycanda yeni elmi meyarlarla tədqiq olunmasında, xalqa tanıdılmasında və eyni zamanda, Yaxın Şərq miqyasında təbliğ edilməsində, onların əsərlərinin nəşrə hazırlanmasında çox böyük işlər görmüşdür.

5. Bu böyük alimin ən mühüm xidmətlərindən biri də ədəbiyyat tariximizin boş qalan sahələrini, işlənilməmiş mövzularını ilk dəfə təhlil obyektinə çevirməsidir. İstər Nizaminin yaşadığı əsrin ədəbi mühiti, istər XIII-XVI əsrlər Azərbaycan ədəbiyyatı ilə bağlı tədqiqlərin, istərsə də XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatının tədqiq olunmasının ilk təşəbbüsçüsü H. Araslı olmuşdur.

6. H.Araslı həm də görkəmli folklorşünas-alimdir. Onun «Kitabi-Dədə Qorqud» abidəsini üç dəfə nəşr etdirməsi, bu dastan haqqında silsilə məqalələr yazması, «Aşıq yaradıcılığı» kimi qiymətli tədqiqat əsəri qələmə alması deyilənləri təsdiq edir. Alimin şifahi xalq ədəbiyyatının janrları və el aşıqları haqqında fikir və mülahizələri indi də öz elmi dəyərini saxlayır.

7. H.Araslı xalqlar arasında ədəbi əlaqələrin yaranması və inkişaf etdirilməsi sahəsində də fəaliyyətini əsirgəməmişdir. Nizami, Füzuli, Xaqani, Nəsimi və Sabirin dünya xalqlarına tanıtdırılmasında, həmçinin Nəvai, Cami, Tofiq Fikrət, Əmir Xosrov Dəhləvi kimi Şərq şairlərinin azərbaycanlı oxucuların sevimlisinə çevrilməsində onun yazılarının, çıxışlarının böyük əhəmiyyəti olmuşdur. H.Araslı dəfələrlə beynəlxalq elmi konfransların, simpoziumların iştirakçısı olmuş, Azərbaycan elmini ləyaqətlə təmsil etmişdir.

***Dissertasiyanın əsas müddəaları aşağıdakı nəşrlərdə öz əksini tapıb:***

***Monoqrafiya:***


1. Akademik Həmid Araslı və klassik ədəbi irs. Bakı, "Elm və Təhsil" nəşriyyatı, 2012, 200 s.


***Elmi məqalələr:***


1. Həmid Araslı və ədəbi əlaqələr. Azərbaycan xalqının milli özünütəsdiqində ədəbiyyat və mədəniyyətin yeri. Beynəlxalq konfransın materialları (29-30 noyabr), Bakı, Nizami muzeyi, 2010, s. 156-158
2. Akademisyen Hamit Araslı ve «Kitabi-Dede Korkut». Motif Akademii Halkbilimi dergisi, İstanbul, №1, 2011, s.86-93
3. Akademik Həmid Araslı və XVI əsrlər Azərbaycan ədəbiyyatı: Filologiya məsələləri, Bakı, 2011, №5, s.203-210
4. Akademik Həmid Araslı aşıq yaradıcılığı haqqında. Filologiya məsələləri, Bakı, 2011, №6, s.334-343
5. Füzuli irsinin öyrənilməsi mərhələləri. Şərq filologiyası məsələləri, Bakı, 2012, 6-cı buraxılış, s. 372-388
6. Həmid Araslı – görkəmli nizamişünas alim. Ədəbiyyat Məcmuəsi, Bakı, 2012, s.143-155
7. Görkəmli nizamişünas alim. AMEA Naxçıvan bölməsi, Axtarışlar. İncəsənət, Dil və Ədəbiyyat –III (5), Naxçıvan – 2012, s.98-105

*Г.А.Сафарли*

# ГАМИД АРАСЛЫ И КЛАССИЧЕСКОЕ ЛИТЕРАТУРНОЕ НАСЛЕДИЕ

## РЕЗЮМЕ

В диссертации впервые системно и всесторонне освещается жизненный путь выдающегося азербайджанского ученого востоковеда – академика Гамида Araслы, исследуется его научная деятельность, проводится анализ научных трудов, ученого, связанных с классическим литературным наследием. Диссертация состоит из введения, трех глав и заключения. Главным объектом исследования, являются научные работы Г.Араслы тридцатых-восьмидесятых годов прошлого века в области классической азербайджанской поэзии. Здесь рассмотрены отдельные тенденции этой поэзии, творческие поиски, вопросы тематики и мастерства классиков. Во «Введении» отмечается актуальность исследования, определяются объект, цель и задачи работы, указывается ее научная новизна, практическая значимость и методология исследования.

В первой главе освещается деятельность Г.Араслы как специалиста по истории литературы. Ученый востоковед, впервые обстоятельно изучив этапы исторического развития азербайджанской литературы XII-XVI и XVII-XVIII в.в., выявил роль классической поэзии в становлении духовной нравственности народа.

Во второй главе исследуются монументальные труды Г.Араслы, касающиеся творчество Низами и Физули. Отмечается, что эти исследования ученого продолжают оставаться образцами для будущего низамиведения и физуливедения.

В третьей главе нашли свое отражение научные поиски Г.Араслы в области фольклора и литературных связей.

Многогранные научные исследования ученого создали базу для формирования в литературоведении «Научная школа Гамида Араслы» и новых научных изысканных его воспитанников.

*Günal Safarli*

# HAMİD ARASLI AND CLASSİCAL LİTERARY HERITAGE

## SUMMARY

For the first time carried out a systematic review and comprehensive coverage of the life of the outstanding scientist-orientalist Hamid Arasly and the analysis of his scientific activity associated with the classical literary heritage.

The main objective of the research comprising introduction, three chapters and conclusion is H. Arasli's classical Azerbaijani poetry in the thirties and eighties of the previous centry, thematic investigations and the works irreplaceable poets. In the introduction the actuality of the research object, its purpose and objectives, scientific innovation, practical significance and methodology are described.

The first chapter is about H.Arasli's activities as a historian on literature. Following the historical development stages of Azerbaijan literature in XII-XVI and XVII-XVIII centuries, he has firstly identified the role of classical poetry in the national methodology and folk life.

In the second chapter H. Arasli's monumental investigations on literature activities of Nizami and Fuzuli are examined and thus it is highlighted that this research can be a great example for those who are researching Nizami and Fuzuli's literary activities.

The third chapter describes the scientific research in the field of folklore and literary relations.

The scholar's multifold scientific research resulted in formulation of H.Arasli scientific school and became a reason to start new investigations for his followers.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ им. НИЗАМИ**

*На правах рукописи*

**САФАРЛИ ГЮНАЛ АЛЯР кызы**

# ГАМИД АРАСЛЫ И КЛАССИЧЕСКОЕ ЛИТЕРАТУРНОЕ НАСЛЕДИЕ

**5716.01– Азербайджанская литература**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание научной степени доктора философии по филологии**

**БАКУ– 2013**